# Gizlilik Siyasəti

Bu sənəd, Bulud Store şirkətinin rəhbərliyi ilə xidmətindən istifadə edən İstifadəçi (bundan sonra İstifadəçi) arasında razılaşmadır.

İstifadəçi Bulud Store tətbiqetməsini istifadə edərək bu Razılaşma Sazişinin şərtlərini qəbul edir.

1. Bulud Store İstifadəçiyə əvvəlcədən bildirmədən bu şərtləri dəyişdirmək hüququnu özündə saxlayır. Yeni şərtlər Bulud Store-da yerləşdirildiyi andan etibarən qüvvəyəminir.

2. İstifadə zamanı tətbiqetmədə yayımlanacaq reklam xarakterli məzmunlara görə Bulud Store tam şəkildə məsuliyyət daşıyır.

3. Tətbiqetmədən istifadə zamanı videolarda yayımlanan məzmunların Azərbaycan Respublikasının qanunlarını pozmasına, eləcə də, saxta reklam, kobud davranış, etik olmayan vədigər mənfi hallara görə Bulud Store heç bir məsuliyyət daşımır.

4. Bulud Store-dan alınan xidmətlərin, məlumatların və ya digər materialların keyfiyyətinə və İstifadəçilərin gözləntilərinə uyğun olmamasına görə Bulud Store məsuliyyət daşımır. İstifadəçi qəbul edir ki, məzmun və digər xidmətlər onun istək və gözləntilərinə tam və ya qismən uyğunlaşmaya bilər.

5. Bulud Store xidmətində olan materialların istifadəsi, surəti və istinad edilməsi yalnız Bulud Store administrasiyasının yazılı icazəsi verildikdən sonra mümkündür. Digər nüsxə, sitat və istifadə etmə mövcud qanunvericiliyin pozulmasıdır.

6. Administrator tətbiqetmənin səhvsiz və fasiləsiz işləməsinə zəmanət vermir və bir tərəfdən hardware və ya proqram təminatının texniki çatışmazlıqları nəticəsində İstifadəçiyə dəyən zərərə görə məsuliyyət daşımır.

7. Administrator istənilən vaxt, İstifadəçinin, bu Sazişin şərtlərini pozduğu halda onun Bulud Store xidmətlərinədaxil olmaq haqqını məhdudlaşdırma və ya ləğv etmək hüququna malikdir. İstifadəçinin günahından yaranan hər hansı bir pozuntuya görə istifadə hüququndan məhrum edilmə halında ödədiyi pul geri qaytarılmır. Administrator belə hallara görə məsuliyyət daşımır.

8. Xidmətdən yararlanmaq üçün balansdan çıxılan rüsum heç bir şəkildə geri qaytarılmır. Xidmətdən istifadə haqqı balansdan/internet paketindən tutula bilər.

9. Şərtlər bütün Bulud Store istifadəçilərinə şamil olunur.

10. İstifadəçi, xidmətdən istifadə edərək onun məlumatlarının Bulud Store tərəfindən istifadə edilməsinə razılıq verir. Əgər bu razılaşmanın şərtləri ilə razı deyilsə, xidmətdən istifadə etməmək hüququna sahibdir.